AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

№2(14)
2013

MALİYYƏ SABİTLİYİ İCMALI

II Rüb

AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

İcmalın əsas məqsədi Azərbaycan Respublikasının Mərkəzi Bankının (AMB) maliyyə sabitliyi üzrə təhlillərini və gözləntilərini əks etdirməkdir. Bu icmalın digər məqsədi isə AMB tərəfindən maliyyə sabitliyi üzrə qəbul olunmuş qərarların bank sisteminə mümkün təsirlərini müntəzəm olaraq ictimaiyyətə çatdırmaqdır. İcmal rüblük olaraq ildə dörd dəfə ictimaiyyətə açıqlanır.

№ 2(14)
2013

MALİYYƏ SABİTLİYİ İCMALI

II Rüb

MÜNDƏRİCAT

GİRİŞ 4

I. Bank sektorunun fəaliyyət göstərdiyi mühit 5

1.1. Qlobal maliyyə sabitliyi üzrə son meyillər 5

Haşiyə 1. Makroprudensial siyasətin konsepsiyası 7

II. Bank sisteminin inkişafı 11

2.1. Bank sisteminin əsas göstəricilərinin dinamikası 11

Haşiyə 2. Maliyyə dərinliyi və iqtisadi artım arasındakı əlaqə: Bütün ölkələr eyni fayda əldə edirmi? 12

2.2. Bank sisteminin öhdəlikləri 13

Haşiyə 3. Əmanətlərin sığortalanmasının bank riskinə təsiri 14

2.3. Bank sisteminin aktivləri 15

2.4. Bank sektorunun fəaliyyətinin maliyyə nəticələri 17

2.5. Bank sektorunun kapitalı 19

2.6. Banklarda faiz dərəcələri 19

III. Bank sistemində risklər 21

Haşiyə 4. Sistem riski: anlayış və xüsusiyyətlər 22

IV. Ödəniş sistemləri 24

Haşiyə 5. Elektron ödənişlərin iqtisadi artıma təsiri 25

İstifadə olunmuş qrafik və cədvəllər 27

Abreviatura

AMB	–	Azərbaycan Respublikasının Mərkəzi Bankı
AİF	–	Azərbaycan Respublikası Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu
AZİPS	–	Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sistemi
BVF	–	Beynəlxalq Valyuta Fondu
DQİ	–	Dövlət Qısamüddətli İstiqrazları
DSK	–	Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi
HHİ	–	Herfindal-Hirşman İndeksi
XÖHKS	–	Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sistemi
İEOÖ	–	İnkişaf Etməkdə Olan Ölkələr
İEÖ	–	İnkişaf Etmiş Ölkələr
MN	–	Azərbaycan Respublikası Maliyyə Nazirliyi
REM	–	Real Effektiv Məzənnə
ROA	–	Aktivlərin Gəlirliliyi
ROE	–	Kapitalın Gəlirliliyi
ÜDM	–	Ümumi Daxili Məhsul

GİRİŞ

Cari ilin yanvar-iyun aylarında Azərbaycan bank sistemi öz fəaliyyətini həssas qlobal iqtisadi mühit, ölkə daxilində isə iqtisadiyyatın qeyri-neft sektorunda yüksək fəallıq şəraitində həyata keçirmişdir.

Cari ilin ötən dövründə dünya iqtisadiyyatında artım davam etsə də, kövrək olaraq qalmış və bu qlobal maliyyə sisteminin sabitliyinə təsir etmişdir. Bu fonda Azərbaycan iqtisadiyyatında iqtisadi artım prosesləri davam etmiş və makroiqtisadi sabitlik qorunmuşdur. Qeyri-neft sektorunda artım və şaxələnmə prosesləri sürətlənmişdir.

Dövr ərzində Azərbaycan Mərkəzi Bankının həyata keçirdiyi maliyyə sabitliyi siyasəti bank sisteminin maliyyə dayanıqlığının qorunmasına və maliyyə vasitəçiliyinin genişlənməsinə yönəlmişdir.

Həyata keçirilmiş siyasət nəticəsində Azərbaycan bank sektorunda sistem riskləri effektiv idarə olunmuş, sektor üzrə maliyyə sabitliyi qorunmuşdur. Bank sisteminin kapital adekvatlığı və likvidlik göstəriciləri məqbul səviyyədə saxlanmışdır. Sektorun maliyyə dərinliyi artmaqda davam etmiş, maliyyə xidmətlərinə çıxış imkanları genişlənmişdir.

I. BANK SEKTORUNUN FƏALİYYƏT GÖSTƏRDİYİ MÜHİT

1.1. Qlobal maliyyə sabitliyi üzrə son meyillər

2013-cü ilin I yarımilliyində qlobal iqtisadiyyatda artım davam etmişdir. Lakin, mərkəzi bankların və hökumətlərin həyata keçirdikləri genişmiqyaslı siyasət tədbirlərinə baxmayaraq bir çox ölkələrdə işsizlik hələ də yüksək səviyyədədir və maliyyə sisteminin kövrəkliyi qalmaqdadır. ABŞ və Yaponiyada iqtisadi fəallığın yüksəlməsi əlamətlərinə əks olaraq Avrozonada resessiya davam edir. Bir çox inkişaf etməkdə olan ölkələrdə isə iqtisadi artımın səngiməsi müşahidə olunur. Bununla belə, borc böhranının həlli və iqtisadiyyatın dəstəklənməsinə yönəlmiş tədbirlər nəticəsində qlobal maliyyə sistemində müəyyən müsbət meyillər də müşahidə olunur.

Dünya iqtisadiyyatında artım gözləniləndən[1] daha aşağı templə baş verir. İlkin məlumatlara görə, birinci yarımillikdə qlobal iqtisadi artım 2.75% təşkil etmişdir. Qlobal iqtisadi artımın zəifləməsi riskləri isə artır və bu, aşağıdakı amillərlə əlaqədardır:

i) inkişaf etməkdə olan ölkələrdə iqtisadi artımın kövrəkliyinin artması. Bu, xarici tələbin artım tempinin azalması, əsas ixrac əmtəələrinin qiymətinin aşağı düşməsi, maliyyə sabitliyinin pozulması təhlükəsinin yüksəlməsi, stimulların zəifləməsi və infrastruktur məhdudiyyətləri ilə əlaqədardır;

ii) Avrozonada resessiyanın gözləntilərdən daha dərin olması. Bu, zəif tələb, aşağı inam və maliyyə sisteminin kövrəkliyi, sərt fiskal və maliyyə şəraitinin qarşılıqlı təsiri nəticəsində baş verir;

iii) ABŞ iqtisadiyyatında artım tempinin gözləntilərdən aşağı olması. Bu, əsasən sərt fiskal konsolidasiya nəticəsində özəl tələbin artım tempinin aşağı düşməsi ilə izah olunur.

Cədvəl 1.1. ÜDM-in artım tempi, əvvəlki illə müqayisədə, %-lə

			Proqnoz		Aprel ayı ilə müqayisədə	
	2011	2012	2013	2014	2013	2014
Dünya iqtisadiyyatı	3.9	3.1	3.1	3.8	-0.2	-0.2
İnkişaf etmiş ölkələr	1.7	1.2	1.2	2.1	-0.1	-0.2
ABŞ	1.8	2.2	1.7	2.7	-0.2	-0.2
Avrozona	1.5	-0.6	-0.6	0.9	-0.2	-0.1
Yaponiya	-0.6	1.9	2.0	1.2	0.5	-0.3
İnkişaf etməkdə olan ölkələr	6.2	4.9	5.0	5.4	-0.3	-0.3
Mərkəzi və Şərqi Avropa	5.4	1.4	2.2	2.8	0.0	0.0
MDB	4.8	3.4	2.8	3.6	-0.6	-0.4
İnkişaf etməkdə olan Asiya	7.8	6.5	6.9	7.0	-0.3	-0.3
Latın Amerika və Karib hövzəsi	4.6	3.0	3.0	3.4	-0.4	-0.5

Mənbə: BVF Dünya iqtisadiyyatı icmalı, İyul 2013

[1] IMF World Economic Outlook, April 2013

Perspektivlərə gəldikdə, BVF tərəfindən dünya iqtisadiyyatının 2013-cü ildə 3.1%, 2014-cü ildə isə 3.8% artacağı proqnozlaşdırılır. Ehtimal olunur ki, cari ildə ABŞ-da və Yaponiyada iqtisadi artım, Avrozonada isə resessiya davam edəcəkdir. İnkişaf etməkdə olan ölkələrdə də iqtisadi perspektivlərin pisləşməsi gözlənilir.

Zəif iqtisadi fəallıq şəraitində qlobal maliyyə sistemi kövrək olaraq qalır. Qlobal səviyyədə maliyyə sabitliyi üçün əsas risklər bunlardır: (i) aktivlərin öhdəliklərlə yüklənməsi; (ii) maliyyə köpükləri; (iii) aşağı faiz dərəcələri və onların artması təhlükəsi.

İqtisadi perspektivlərin qeyri-müəyyənliyi şəraitində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr üçün əhəmiyyətli olan maliyyə risklərindən biri *aktivlərin öhdəliklərlə yüklənməsidir*. Aktivlərin yüklənməsi klassik kredit əməliyyatları ilə yanaşı REPO əməliyyatları, derivativlərlə əqdlərin aparılması nəticəsində də baş verir. Beləliklə, öhdəliklərlə yüklənmiş aktivlərin dəqiq dəyərinin məlum olmaması, bu növ aktivlərin qiymətinin reytinq və ya bazar konyunkturunun dəyişməsinə həssaslığı təminatlı kredit bazarının dayanıqlığına, habelə təminatsız kreditləşmənin bərpasına ciddi mənfi təsir edə bilər.

İnkişaf etmiş ölkələrin mərkəzi banklarının apardığı adaptiv monetar siyasət fonunda qlobal investorların münasib gəlirlilik axtarışları güclənir. Bu, həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin maliyyə bazarlarının ayrı-ayrı seqmentlərində *köpüklərin yaranması təhlükəsini* artırır. Bir çox inkişaf etməkdə olan ölkələrdə ipoteka kreditləşməsi bazarının hərarətlənməsi problemi xüsusi aktuallıq kəsb edir. Belə ki, Honqkonq, Cənubi Koreya, Sinqapur, Tayland, Filippin kimi ölkələrdə ipoteka kreditləri üzrə defolt riskinin azaldılması və borcalanların borc yükünün tənzimlənməsi məqsədilə kreditin məbləğinin girov dəyərinə nisbəti (loan – to – value ratio – LTV) və borcun məbləğinin gəlirə nisbəti (debt – to – income ratio – DTI) kimi makroprudensial alətlərdən istifadə olunur.

Qlobal maliyyə sabitliyi üçün mühüm təhlükə kifayət qədər uzun müddət ərzində faiz dərəcələrinin rekord səviyyədə aşağı saxlanılması ola bilər. Belə ki, uzun müddət aşağı qaldıqdan sonra faiz dərəcələrinin artması yığılmış riskləri aktuallaşdıra bilər. Faiz dərəcələrinin artmasının neqativ təsirləri maliyyə sektorunda bir neçə kanal vasitəsilə (bazar riski, kredit riski, faiz riski və s.) yayıla bilər. Risklərin reallaşması borcalanların defolt hallarının artmasında, kredit portfelinin keyfiyyətinin pisləşməsində və s.-də özünü büruzə verə bilər.

Qeyd olunanlarla yanaşı, qlobal maliyyə sistemində müəyyən bərpa meyilləri də müşahidə olunur. Məsələn, suveren borc öhdəliklərinin gəlirliliyi və fond bazarının volatilliyi kimi maliyyə bazarının risk göstəriciləri ötən ilin eyni dövrü ilə müqayisədə əhəmiyyətli yaxşılaşmışdır.

İnkişaf etmiş ölkələrin fond indeksləri cari ildə 10.6% artdığı halda inkişaf etməkdə olan ölkələrin fond indeksləri 5.8% azalmışdır (Qrafik 1.1.).

Qrafik 1.1. MSCI fond indeksləri, (01.01.2011=100)



Mənbə: Blumberq

İnkişaf etməkdə olan bazarlarda fond indekslərinin dinamikasına iqtisadi artımın səngiməsi təhlükəsi, korporativ sektorun zəif gəlirliliyi, əmtəə qiymətlərinin azalması təsir etmişdir. Beləliklə, Latın Amerikası, inkişaf etməkdə olan Avropa və Asiya bazarlarının indeksləri müvafiq olaraq 11.1%, 7.3% və 5.7% azalmışdır.

2013-cü ildə inkişaf etməkdə olan ölkələrin borc və səhm bazarlarına iri kapital axını davam

Haşiyə 1. Makroprudensial siyasətin konsepsiyası

Makroprudensial siyasət - sistematik maliyyə böhranı riskinin minimallaşdırılmasına yönəldilmiş preventiv tədbirlər toplusudur. BVF, Beynəlxalq Hesablaşmalar Bankı və Maliyyə Sabitliyi Şurası tərəfindən birgə hazırlanmış və 2009-cu ildə dərc olunmuş "Maliyyə institutlarının, bazar və alətlərin sistem əhəmiyyətliliyinin qiymətləndirilməsi üzrə Təlimat"da sistem riski "maliyyə sisteminin və ya onun bir hissəsinin vəziyyətinin pisləşməsi nəticəsində maliyyə xidmətlərinin göstərilməsinin pozulması riski» kimi qeyd olunur. Beynəlxalq maliyyə təşkilatlarının hesabatlarında maliyyə xidmətləri dedikdə - maliyyə vasitəçiliyi xidmətləri, risklərin idarə edilməsi, ödəniş və hesablaşma xidmətləri və s. nəzərdə tutulur. Makroprudensial siyasət - mərkəzi bankın makroiqtisadi hədəflərə nail olmaq üçün yürütdüyü monetar siyasət və ayrı-ayrı maliyyə institutlarının sabitliyini təmin etmək, onların kreditorlar, müştərilər və investorlar qarşısında öhdəliklərinin icrasına nəzarət məqsədilə həyata keçirilən mikroprudensial tənzimləmə arasında aralıq yer tutur.

Makroprudensial siyasətin dörd səciyyəvi xüsusiyyəti vardır:

- maliyyə sisteminin ümumilikdə dayanıqlığına görə məsuliyyət;
- sistem risklərinin minimallaşdırılması;
- spesifik alətlər toplusunun istifadəsi;
- digər dövlət qurumları ilə qarşılıqlı əməkdaşlıq.

Makroprudensial siyasətin obyekti kimi maliyyə vasitəçiləri, bazarlar, maliyyə bazarının infrastrukturu, eləcə də maliyyə sistemi və real iqtisadiyyat arasında qarşılıqlı əlaqələr çıxış edir.

Makroprudensial siyasətin məqsədləri:

- tənəzzül və xarici şokları da nəzərə almaqla maliyyə sisteminin məcmu şoklara qarşı dayanıqlığının dəstəkləməsi;
- maliyyə sisteminin bütövlükdə üzərinə götürdüyü risklərin məhdudlaşdırılması;
- maliyyə tsiklinin hamarlaşdırılması: maliyyə sisteminin sabitliyi və ya iqtisadiyyat üçün potensial təhlükə ola biləcək "köpüklərin" yaranmasının qarşısının alınması.

Makroprudensial siyasət alətləri

İstifadə edilən alət arsenalı baxımından makroprudensial siyasət mikroprudensial tənzimləmə çərçivəsinə əsaslanır. Makroprudensial tənzimləmə prudensial normaları tətbiq edir - kapital və likvidlik tələbləri, risklərə dair limitlər və s. Beynəlxalq təcrübədə makroprudensial alətlərin tətbiqinə dair iki yanaşma mövcuddur:

- *dəyişən alətlər yanaşması (variable approach)* – parametrləri zaman keçdikcə (vəziyyətdən asılı olaraq) dəyişən prudensial normativlərin istifadəsi;
- *sabit alətlər yanaşması (fixed approach)* – parametrləri dəyişməyən - daimi olan məcburi prudensial normativlərin istifadəsi.

Rəqabət mühitini dəstəkləmək üçün bütün iştirakçılar üzrə eyni olan mikroprudensial standartlardan fərqli olaraq, makroprudensial siyasətin iki xüsusiyyəti var:

- sistem əhəmiyyətli institutlar, bazarlar və alətlər üçün daha yüksək standartların tətbiqi nəzərdə tutulur;
- «köpüklərin» və disbalansların yaranmasına müqavimət göstərmək üçün kontrtsiklik (dinamik) xarakterli olmalıdır.

Mənbələr:

Guidance to assess the systemic importance of financial institutions, markets and instruments: initial considerations. International Monetary Fund, Bank for International Settlements, Financial Stability Board, November 2009

Enhancing Financial Stability and Resiliance: Macroprudential Policy, Tools, and Systems for the Future. Group of Thirty, October 2010

Itai Agur and Sunil Sharma. Rules, Discretion, and Macro-Prudential Policy, IMF Working Paper 13/65 (Washington: IMF)

etmişdir. Cari ilin ilk 5 ayı ərzində inkişaf etməkdə olan ölkələrə kapital axını ötən ilin müvafiq dövrü ilə müqayisədə 64% artmışdır. Dövr ərzində inkişaf etməkdə olan ölkələrə kapital axınlarının artaraq pik səviyyəsinə çatması yumşaq maliyyə şəraiti və yuxarı gəlirli ölkələrin mərkəzi banklarının apardığı adaptiv pul siyasətinin nəticəsidir (Qrafik 1.2.).

Qrafik 1.2. İnkişaf etməkdə olan ölkələrə kapital axını, mlrd. $



Mənbə: Institute of International Finance

Dövr ərzində verilmiş sindikatlaşmış bank kreditlərinin həcmi əhəmiyyətli artmışdır. Artım əsasən Avropa və Mərkəzi Asiya ölkələri hesabına baş vermişdir. Avropa banklarından cəlb olunan kreditlərin əksər hissəsi Türkiyə və Rusiyanın payına düşür (əsasən təbii resurslarla bağlı sektorlara). Bununla belə iqtisadi artım tempinin səngiməsi, iqtisadi fəallıqla bağlı nisbətən bədbin gözləntilər, maliyyə bazarlarında hərarətlənmə riskləri və s. amillər kapital axınlarına məhdudlaşdırıcı təsir edir. Belə ki, gözləntilərə görə cari ildə regiona kapital axını 2012-ci illə müqayisədə az olacaqdır.

Beləliklə, artım perspektivlərinin zəifliyi, mövcud risklərin tam həll olunmaması və yeni risklərin yaranması, qlobal iqtisadiyyatın bərpası, məşğulluğun yüksəlməsi və qlobal yenidən balanslaşma üçün yeni çətinliklər yaradır. Bu şəraitdə beynəlxalq maliyyə-kredit təşkilatları ölkələrin spesifikasını nəzərə almaqla iqtisadi artımı dəstəkləyən tədbirlərin görülməsini tövsiyə edirlər.

BVF-nin tövsiyələrinə əsasən aparıcı inkişaf etmiş ölkələr qısamüddətli dövr ərzində artımı dəstəkləyən və eyni zamanda dövlət büdcəsinin dayanıqlığına zəmin yaradan tədbirlər görməlidirlər. Aşağı inflyasiya və əhəmiyyətli miqyasda istifadə olunmayan istehsal güclərinin mövcudluğu fonunda stimulların davam etdirilməsi məqsədəuyğun hesab olunur. Bu, həmçinin, yaxın gələcəkdə büdcə korreksiyasını daha hamar aparmağa imkan verməlidir.

Görülən tədbirlərin potensial mənfi təsirlərini neytrallaşdırmaq məqsədilə tənzimləmə və makroprudensial alətlərdən istifadə olunması tövsiyə olunur. Beynəlxalq maliyyə təşkilatlarının və iqtisadçıların fikrincə, bankların yenidən kapitallaşdırılması, monetar siyasətin iqtisadiyyata transmissiyasının gücləndirilməsi məqsədilə maliyyə sistemində restrukturizasiya və islahatlar davam etməlidir.

Avrozonada bank aktivlərinin təftişi problemli aktivləri və əlavə kapitalın kəmiyyət tələblərini müəyyən etməlidir. Müvafiq hallarda isə Avropa Sabitlik Mexanizmi hesabına birbaşa yenidən kapitallaşma tələb oluna bilər. İqtisadi artım və yeni iş yerlərinin yaradılmasının dəstəklənməsi məqsədilə maliyyə fraqmentasiyasının azaldılması, tələbin stimullaşdırılması, əmək və əmtəə bazarlarının islahatına yönəlmiş tədbirlərin davam etdirilməsi məqsədəuyğun hesab olunur.

İnkişaf etməkdə olan ayrı-ayrı ölkələrdə iqtisadi artım tempinin azalması riskindən qorunmaq məqsədilə ilk növbədə monetar siyasətin yumşaldılması tövsiyə edilir. Tövsiyə əksər ölkələrdə məhdud inflyasiya gözləntilərinə əsaslanır.

Qeyd olunanlarla yanaşı qlobal iqtisadi artım tempini artırmaq, qlobal yenidən balanslaşdırmanı dəstəkləmək məqsədilə bütün aparıcı ölkələrdə struktur islahatların davam etdirilməsi zəruridir. Bu ilk növbədə tələbin (Çin) və investisiyaların (Almaniya), digər ölkələrdə isə rəqabət qabiliyyətliliyin artırılması istiqamətində tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

1.2. Azərbaycanda makroiqtisadi proseslər

2013-cü ilin yanvar-iyun aylarında əlverişli xarici mövqe və daxili tələbin genişlənməsi şəraitində ölkə iqtisadiyyatında artım prosesləri davam etmişdir.

Son illərdə olduğu kimi, cari ilin 6 ayında da ölkənin xarici mövqeyi əlverişli olmuşdur. Dövlət Gömrük Komitəsinin (DGK) məlumatlarına əsasən, 2013-cü ilin 6 ayında xarici ticarət dövriyyəsi 17.1 mlrd. $ təşkil etmişdir ki, bunun da 12 mlrd. $-ı ixracın, 5.2 mlrd. $-ı isə idxalın payına düşür. Xarici ticarət balansının profisiti isə 6.8 mlrd. $ olmuşdur. BVF-nun proqnozları iri həcmli profisitin orta müddətli dövrdə də davam edəcəyini göstərir.

İxracdan əlavə, xaricdən pul baratlarının və kapital axınlarının dinamikası da ölkəyə valyuta daxilolmalarına artırıcı təsir göstərmişdir. İlkin məlumatlara görə, dövr ərzində ölkəyə 774 mln. $ pul baratı daxil olmuşdur.

DSK-nın məlumatına görə, ölkə iqtisadiyyatına qoyulmuş xarici investisiyaların həcmi isə yanvar-iyun aylarında 40%-dən çox artaraq 2.4 mlrd. $ təşkil etmişdir.

Cari ilin 6 ayında ölkənin strateji valyuta ehtiyatları 1.6 mlrd. $ və ya 3.5% artaraq 47.7 mlrd. $-a çatmışdır ki, bu da təqribən 3 illik mal və xidmətlərin idxalına kifayət edir və xarici dövlət borcundan təqribən 8 dəfə çoxdur. Eyni zamanda strateji valyuta ehtiyatlarının ÜDM-ə nisbəti 70%-ə yaxındır. AMB-nin valyuta ehtiyatları isə ilin əvvəlindən 8.8% artaraq 12.7 mlrd. $ olmuşdur ki, bu da 9 aylıq mal və xidmət idxalını maliyyələşdirməyə kifayətdir.

2013-cü ilin 6 ayında iqtisadi artıma məcmu tələbin bütün komponentlərinin, o cümlədən, son istehlak xərclərinin, investisiyaların, dövlət xərclərinin artımının müsbət töhfəsi olmuşdur. Orta aylıq əmək haqqının, iqtisadiyyatda məşğul əhalinin sayının və əhalinin istehlak kreditlərinin həcminin artması nəticəsində ümumi istehlakçı aktivliyi yüksək olmuşdur. Gəlirlərin artımı pərakəndə ticarət dövriyyəsinin artımına şərait yaratmışdır.

Hesabat dövründə iqtisadiyyata ümumi investisiya qoyuluşu 22.9% artaraq təqribən 7.4 mlrd. manat təşkil etmişdir. O cümlədən qeyri-neft sektoruna investisiyalar 19.5% artmış və onun ümumi investisiya qoyuluşlarında xüsusi çəkisi 69.4% təşkil etmişdir.

Cari ilin birinci yarımilində ÜDM real ifadədə 5% artmış və nominal olaraq 27.2 mlrd. manat təşkil etmişdir. Hesabat dövründə neft-qaz sektorunda 0.7% azalma olmuş, qeyri-neft sektorunda isə 10.9%-lik artım qeydə alınmışdır. Yaradılan əlavə dəyərin 2/3 hissəsi məhsul istehsalı sahələrinin, 1/3 hissəsi isə xidmət sahələrinin payına düşmüşdür.

Qrafik 1.3. Yanvar-iyun aylarında iqtisadi artım, %-lə



Mənbə: DSK

Hökumətin, Mərkəzi Bankın, habelə beynəlxalq təşkilatların proqnozlarına görə yaxın perspektivdə ölkədə iqtisadi artımın davam edəcəyi gözlənilir.

2013-cü ilin 6 ayı ərzində qiymət sabitliyi təmin edilmiş, inflyasiya müəyyən edilmiş proqnoz çərçivəsində olmuşdur.

Qrafik 1.4. Orta illik inflyasiya, %-lə



Mənbə: DSK

Orta ilik inflyasiya 2% təşkil etmişdir. İlin əvvəlinə nəzərən qiymətlər 1.2%, ötən ilin eyni dövrü ilə müqayisədə isə 3.1% artmışdır.

2013-cü ilin I yarimilində məzənnə siyasəti valyuta bazarında tələb və təklif arasında tarazlığın təmin olunmasına və bu əsasda manatın ABŞ dollarına qarşı məzənnəsinin sabitliyinə yönəldilmişdir. Məzənnə siyasətinin parametrləri tədiyə balansının vəziyyəti, bank sektorunda maliyyə sabitliyinin və qeyri-neft sektorunun rəqabət qabiliyyətinin qorunması hədəfləri nəzərə alınmaqla müəyyənləşdirilmişdir.

Ölkənin tədiyə balansında böyük profisitin mövcud olması şəraitində valyuta bazarında təklif tələbi üstələmişdir. Lakin, məzənnənin əhəmiyyətli möhkəmlənməsinin qarşısını almaq və bununla da qeyri-neft sektorunun rəqabət qabiliyyətinə neqativ təsirləri neytrallaşdırmaq üçün Mərkəzi Bank tərəfindən yarımillik ərzində 1209.3 mln. $ həcmində valyuta sterilizasiyası həyata keçirilmişdir.

2013-cü ilin 6 ayı ərzində geniş pul kütləsi iqtisadiyyatın tələbinə uyğun olaraq dəyişmiş, manatla geniş pul kütləsi 3.6% artmışdır. Pul kütləsinin strukturunda yaxşılaşma prosesləri davam etmişdir.

II. BANK SİSTEMİNİN İNKİŞAFI

2.1. Bank sisteminin əsas göstəricilərinin dinamikası

2013-cü ilin I yarısında bank sektorunda artım dinamikası qorunmuş və maliyyə vasitəçiliyinin genişlənməsi prosesi davam etmişdir.

Cari ilin II rübünün sonuna bank sektorunun aktivləri 18 186.3 mln. manat təşkil etmişdir. Dövr ərzində bank aktivləri 1 656.26 mln. manat və ya 10% artmışdır. Kreditlər ilin əvvəlindən 12.5% artaraq 1 iyul 2013-cü il tarixə 13 420 mln. manata çatmışdır ki, bu da bank aktivlərinin 74%-ni təşkil edir.

Bankların maliyyə və qeyri-maliyyə sektorundan cəlb etdikləri vəsaitlər 1,9% azalsa da, fiziki şəxslərin əmanətləri yanvar-iyun ayları ərzində 15,8% artaraq 5 922,2 mln. manata çatmışdır.

Bank sisteminin maliyyə dərinliyi artmaqda davam edir. Son 5 ildə bank aktivlərinin ÜDM-ə nisbəti 40 faiz bəndi artaraq 67%-ə çatmışdır.

Maliyyə dərinliyinin artması maliyyə xidmətlərindən istifadənin genişlənməsi ilə müşayiət olunur. Belə ki, cari ilin II rübünün sonuna Mərkəzləşdirilmiş Kredit Reyestrində 1.7 milyondan artıq borcalan haqqında məlumat toplanmışdır ki, bu da ilin əvvəli ilə müqayisədə 13.1% çoxdur.

Bank sisteminin təmərküzləşməsi azalır. İri bankların (kapitalın həcminə görə ilk 5 bank) sistem üzrə aktivlərdə payı 57.8%-dən 52.1%-ə azalmış, iqtisadiyyata kredit qoyuluşunda isə payı 54.2%-dən 51.6%-ə enmişdir. Herfindal-Hirşman indeksində[2] (bank sistemində təmərküzləşmə səviyyəsini qiymətləndirilməsi üçün tətbiq edilir) 2008-2009-cu illərdən başlayan azalma trendi davam edir. Hazırda Herfindal-Hirşman İndeksi təmərküzləşmənin orta səviyyədə olduğunu göstərir.

Qrafik 2.1. Herfindal – Hirşman indeksi (kreditin həcminə görə)



Mənbə: AMB

Bank sistemində kapitallaşma proseslərinin davam etdirilməsi, eyni zamanda banklarda idarəetmə potensialının gücləndirilməsi, aktivlərin sağlamlaşdırılması, maliyyə

Cədvəl 2.1. Bank sisteminin əsas göstəricilərinin artım tempi, %-lə

	2010	2011	2012	01.07.2013
Aktivlər	13.9	7.3	26.5	10.0
Kreditlər	9.0	8.1	23.0	12.5
Hüquqi şəxslərin depozitləri	4.3	16.1	-0.2	-1.9
Əhalinin əmanətləri	29.8	36.0	24.1	15.8
Məcmu kapital	7.8	12.7	37.0	11.7

Mənbə: AMB

[2] Herfindal-Hirşman indeksi – bankların bank sistemində paylarının kvadratlarının cəminə bərabərdir. Burada bankların kreditlərinin payına görə

Haşiyə 2. Maliyyə dərinliyi və iqtisadi artım arasındakı əlaqə: Bütün ölkələr eyni fayda əldə edirmi?

Maliyyə dərinliyinin iqtisadi artıma təsiri haqqında çoxlu sayda nəzəri və empirik ədəbiyyat mövcuddur. Məlumdur ki, dəyişkən, dinamik və inkişaf etmiş maliyyə sektoru daha çox iqtisadi fayda gətirə bilər.

Aparılmış tədqiqatlar göstərir ki, maliyyə bazarının inkişafı və bankların iqtisadi artıma təsir gücü regionlar, neft və qeyri-neft ixracatçıları, eləcə də gəlir səviyyəsinə görə ölkə tiplərindən asılı olaraq heterogen (müxtəlifcinsli) xarakterə malikdir. Məsələn, bir çox neft ixrac edən ölkələrdə, Orta Şərq və Şimali Afrika regionu ölkələrində və aşağı gəlirli ölkələrdə (AGÖ) bu təsir zəifdir. Bu nəticə 150 ölkənin 1975-2005-ci illər üzrə olan məlumatlarından istifadə edilərək dinamik panel qiymətləndirməsinə əsaslanır.

Qiymətləndirmələr göstərir ki, heterogenliyə səbəb olan amillərdən biri **resurs lənətidir**. Resursla zəngin olan ölkələrdə maliyyə sisteminin effektiv işləməməsi iqtisadi artıma da mənfi təsir edir. Resurs lənəti iqtisadiyyatın hakim sahəsi olan resurs ixracı sektorundan mənfi təsirin iqtisadiyyatın digər sahələrinə ötürülməsinə səbəb olur.

Tədqiqat nəticəsində məlum olur ki, özəl sektora verilən kredit ÜDM-in 110%-ni keçirsə, iqtisadi fəaliyyət üzrə hər əlavə dərinləşmə mənfi olur.

Bir sıra neft ixrac edən ölkələrdə son 30 illik dövr ərzində kapitalizasiya yüksək olsa da, artım tempi neft idxal edən ölkələrdən aşağı olmuşdur. Buna səbəb neft ixrac edən ölkələrin daha az maliyyə dərinliyi nümayiş etdirməsi ola bilər. Bundan əlavə, neft ixrac edən ölkələrdə neftdən asılılıq dərəcəsi artdıqca bank dərinliyinin iqtisadi artıma da təsiri azalır.

Orta Şərq və Şimali Afrika regionuna (OŞŞA) gəldikdə bu ölkələrin də bank sektorunun dərinliyi iqtisadi artıma çox az təsir edir. Nəticələrdən belə qənaətə gəlmək olar ki, OŞŞA ölkələrinin maliyyə vasitəçiliyində keyfiyyət fərqi vardır. Bu fərq dövlət payının çox olması, rəqabətin və maliyyə islahatlarının çatışmazlığından irəli gəlir. Yəni bu ölkələr digər region ölkələri ilə eyni bank dərinliyinə malik olsalar da onların artımdan əldə etdiyi faydanın üçdə ikisini qazanırlar.

Yuxarıda qeyd olunan hər iki ölkələr qrupu üzrə bank kreditinin həcmi böyük olsa da, bu göstərici firmaların və ev təsərrüfatlarının kreditə çıxışını tam təmin etməyə imkan vermir. Bu da bank sektorunun səmərəlilik və rəqabətlilik göstəricisinə uyğun gəlmir.

Maliyyə dərinliyinin iqtisadi artıma təsir gücü AGÖ-də də eynilik təşkil edir və bu təsir gəlir səviyyəsindən asılı olaraq dəyişir. Ən aşağı gəlir səviyyəsində təsir mənfi, adambaşına daha yüksək gəlir düşən ölkələrdə isə müsbətdir.

Heterogenliyə səbəb olan digər mümkün amillərdən biri **maliyyə xidmətlərinə çıxışda fərqlilik və bank rəqabətinin dərəcəsi** ola bilər. AGÖ ilə digər ölkələrin müqayisəsi göstərir ki, bu ölkələr arasında maliyyə xidmətlərinə çıxış arasındakı fərq bank dərinliyi arasındakı fərqdən daha böyükdür.

Heterogenliyin digər bir amili kimi **bank sahibkarlığı** ola bilər. OŞŞA regionunda bir çox ölkələr dövlət banklarının yüksək payına və xarici bankların kiçik payına malikdirlər. Yüksək paya malik olan dövlət bankları isə iqtisadi artıma əhəmiyyətli dərəcədə mənfi təsir edir və buna 2 amil səbəb ola bilər: aşağı maliyyə dərinliyi və aşağı institusional keyfiyyət. Bunun əksinə olaraq xarici bankların iştirakı bank sektoru fəaliyyətinin və rəqabətin yaxşılaşmasına səbəb olur.

Ümumilikdə tədqiq olunan ölkələrdə siyasət qurucuları qarşısında mürəkkəb çağırışlar dayanır. Həm bank sahəsində, həm də qiymətli kağızlar bazarında dərinləşməyə şərait yaradan maliyyə islahatlarının aparılması ilə yanaşı bu ölkələrdə daha 2 istiqamətdə addım atılmalıdır. Birincisi, kredit ekspansiyalarına qoyulan maneə aradan qaldırılmalıdır. İkincisi, siyasət qurucuları bank vasitəçiliyinin inkişafını dəstəkləyən yöndə fəaliyyət həyata keçirməlidir. Nəticə etibarilə isə bu addımlar uzunmüddətli dövrdə daha yüksək və dayanıqlı artıma nail olmağa kömək edəcəkdir.

Mənbə:
Adolfo Barajas, Ralph Chami, Seyed Reza Yousefi. "The Finance and Growth Nexus Re-Examined: Do All Countries Benefit Equally?" BVF, May 2013

ehtiyatlanması səviyyəsinin artırılması, risklərin tənzimlənməsinə yönəlmiş tədbirlərin davam etdirilməsi nəticəsində bankların xarici investorlar üçün cəlbediciliyi artır. Cari ilin I yarımilliyində bank sektoruna xarici investisiyaların həcmi 14.8 mln. manat (4.5%) artaraq 345 mln. manata çatmışdır. 01 iyul 2013-cü il tarixinə fəaliyyət göstərən xarici kapitallı bankların sayı 22 olmuşdur.

Dövr ərzində iqtisadi subyektlərin maliyyə resurslarına çıxış imkanlarının artırılması məqsədilə bank-maliyyə sisteminin regional şəbəkəsinin genişlənməsi prosesi davam etmişdir. Cari ilin I yarımilliyində 26 yeni bank filialı (cəmi 676 filial) və 2 yeni bank şöbəsi açılmışdır (cəmi 134 bank şöbəsi). Banklarla yanaşı qeyri-bank kredit təşkilatlarının əhatə dairəsi də genişlənmişdir.

Qrafik 2.2. Bank şəbəkəsinin dinamikası



Mənbə: AMB

Qeyri-bank kredit təşkilatlarının sayı 133-dən 139-dək artmışdır. O cümlədən, yarım il ərzində 6 yeni kredit ittifaqının və beynəlxalq humanitar təşkilatlar tərəfindən maliyyələşdirilən 2 yeni kredit təşkilatının fəaliyyəti lisenziyalaşdırılmışdır. Kredit ittifaqları və təşkilatları ilə yanaşı 1 bank olmayan kredit təşkilatı (Aqrar Kredit) da maliyyə xidmətlərini göstərir. Qeyri-bank kredit təşkilatlarının filiallarının sayı 1 iyul 2013-cü il tarixinə 129-a çatmışdır (1 yanvar 2013-cü il tarixinə 102).

Əhalinin bank-maliyyə xidmətlərinə çıxışını genişləndirən "AZƏRPOÇT" Məhdud Məsuliyyətli Cəmiyyətinin yarımillik ərzində filiallarının sayı dəyişməmiş, (1 iyul 2013-cü il tarixə 63) şöbələrinin sayı isə 953-ə (1 yanvar 2013-cü il tarixə 945) çatmışdır.

2.2. Bank sisteminin öhdəlikləri

2013-cü ilin I yarımilliyində bank sisteminin resurs bazası əsasən daxili bazardan cəlb edilmiş vəsaitlər hesabına artmışdır.

2013-cü ilin I yarısında bankların öhdəlikləri 1.6% artaraq (241.1 mln. manat) 15 329.3 mln. manata çatmışdır. O cümlədən, bankların daxili bazardan cəlb edilmiş resursları 6.6% artaraq 11 400 mln. manata yüksəlmiş və cəmi öhdəliklərin 74.4%-ni təşkil etmişdir.

Qrafik 2.3. Bankların resurs bazasının strukturu, %-lə



Mənbə: AMB

Yarım il ərzində əhalinin əmanətləri 15.8% artaraq 5 922.2 mln. manata çatmış və onların bankların öhdəliklərində payı hesabat dövrünün sonuna 38.6% təşkil etmişdir.

Qrafik 2.4. Qeyri-maliyyə sektorunun depozitlərinin dinamikası



Mənbə: AMB

2013-cü ilin 1 iyul tarixinə müddətli əmanətlərin cəmi əmanətlərdə xüsusi çəkisi 80% olmuş və onun məbləği 4 719.3 mln. manat təşkil etmişdir. Bankların sabit fəaliyyətinin təmin edilməsi məqsədilə bank islahatlarının həyata keçirilməsi nəticəsində əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəlməsi hesabat dövründə də uzunmüddətli əmanətlərin artım dinamikasına müsbət təsir etmişdir. Yarım il ərzində uzunmüddətli əmanətlər 26.7% artaraq cəmi əmanətlərin 42.4%-nə çatmışdır.

Qrafik 2.5. Əmanətlərin müddət strukturu, mln. manat



Mənbə: AMB

Yarımillik ərzində milli valyutada əmanətlər 21% artaraq 3 583.8 mln. manata çatmış və cəmi əmanətlərin 60.5%-ni (ilin əvvəlinə 58%) təşkil etmişdir.

Qeyri-rezident fiziki şəxslər tərəfindən yerləşdirilmiş əmanətlərin həcmi ilin əvvəli ilə müqayisədə 19.1% artmışdır.

Hüquqi şəxslərin (maliyyə və qeyri-maliyyə təşkilatları) depozitləri 1 iyul 2013-cü il tarixinə 5 477.7 mln. manat təşkil etmişdir. Hüquqi şəxslərin cəmi depozitlərində müddətli depozitlərin xüsusi çəkisi dövrün sonuna 53.2% olmuşdur.

Qrafik 2.6. Xarici borcun dinamikası



Mənbə: AMB

Haşiyə 3. Əmanətlərin sığortalanmasının bank riskinə təsiri

Son maliyyə böhranına cavab olaraq bir çox ölkələr maliyyə sabitliyinin təmin edilməsi məqsədi ilə qorunan əmanətlərin miqyas və məbləğini artırmışdır. Mövzunun əhəmiyyətini nəzərə alaraq, Dünya Bankının mütəxəssisləri 96 ölkənin timsalında əmanətlərin sığortalanmasının maliyyə sabitliyinə təsirini təhlil etmişdir.

Əmanətlərin sığortalanması ilə maliyyə sabitliyi arasında əlaqəyə iki müxtəlif prizmadan baxmaq olar. "Moral hazard" (Mənəvi məsuliyyətsizlik) hipotezinə əsasən əmanətlərin sığortalanması bank menecerlərinin riskli aktivlərə investisiya etməsini stimullaşdırır. Belə ki, qorunan əmanətçilərin bankların fəaliyyətinə zəif nəzarət etməsi, eləcə də əmanətlərin sığortalanması üçün bankların risk səviyyəsindən asılı olmayaraq təqvim haqqı ödəməsi bankların daha riskli portfel seçimini şərtləndirir. Bunun əksinə, stabilləşdirici hipotezə əsasən əmanətlərin sığortalanması xüsusilə böhran dövrlərində əhalinin banklara olan inamını artıraraq sistem riskinə azaldıcı təsir göstərir.

Ekonometrik hesablamanın nəticəsinə əsasən əmanətlərin sığortalanması qlobal böhrandan öncəki dövrdə (2004-2006) bank riskini artırmışdır. Bundan fərqli olaraq böhran vaxtı (2007-2009) əmanətlərin qorunması stabilləşdirici təsirə malik olmuşdur. Ümumilikdə, neqativ təsirin həcmi pozitiv təsiri üstələmişdir ki, bu da bank riskinin artımını şərtləndirmişdir. Bundan əlavə, təhlilin nəticəsinə əsasən effektiv prudensial nəzarət, xüsusilə də məcmu kapital üzrə tələblər moral hazard probleminin neqativ təsirini azalda bilər.

Mənbə:
Deniz Anginer, Asli Demirguc-Kunt, Min Zhu, "How Does Deposit Insurance Affect Bank Risk. Evidence from the Recent Crisis", Dünya Bankı, 2012

Qeyri-rezident banklardan və beynəlxalq maliyyə təşkilatlarından cəlb edilmiş vəsaitlərin həcmi rübün sonuna 16.2% artaraq 2 686.2 mln. manata çatmışdır. Xaricdən cəlb olunmuş vəsaitlərin cəmi öhdəliklərdə xüsusi çəkisi tarixi maksimumdan aşağı səviyyədədir.

2.3. Bank sisteminin aktivləri

2013-cü ilin yanvar-iyun aylarında bank sisteminin maliyyə vasitəçiliyi dərinləşmiş, maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi prosesi davam etmişdir.

Cari ilin I yarımilliyində bank aktivlərinin artımı 10% təşkil etmişdir ki, bu da əsasən kredit qoyuluşları ilə əlaqədar olmuşdur. Kommersiya banklarının iqtisadiyyata kredit qoyuluşları hesabat dövrü ərzində 9.48% artaraq 13 052.7 mln. manata çatmışdır.

Mərkəzi Bankın apardığı sorğuya əsasən cari ilin II rübündə ümumilikdə biznes və istehlak kreditlərinə tələbdə canlanma davam etməkdədir. Biznes kreditlərində tələb əsasən uzunmüddətli kreditlərədir. Kommersiya daşınmaz əmlakının alınmasına və SKMF proqramı üzrə kreditlərə tələb sabit qalmışdır. Kredit məhsullarına tələbin yüksək olması bankların təklifinə də təsir göstərmişdir. Belə ki, qısamüddətli kreditlərə tələbin azalmasını görən banklar qısamüddətli kredit məhsullarının təklifini azaltmışlar. Banklar ümumilikdə növbəti üç aya olan tələb və təklif gözləntilərinə optimist yanaşırlar.

İstehlak kreditləri növləri arasında cari ilin I yarısında ipoteka və kredit kartlarına tələb əhəmiyyətli artmışdır. Avtomobil kreditləri üzrə zəif tələb bankların ipoteka və kredit kartları üzrə fəallığının artmasına səbəb olmuşdur.

Bankların kredit əməliyyatlarının genişlənməsini Mərkəzləşdirilmiş Kredit Reyestrinin məlumatları da təsdiqləyir. Belə ki, 2013-cü ilin ilk yarısında kredit sorğularının sayı ötən ilin müvafiq dövrünə nisbətən 2.6 dəfə artmış və 988 367-yə çatmışdır (ötən il 380 150). Sorğuların 986 009-u kredit təşkilatları tərəfindən, 2 358-i isə fiziki şəxslər tərəfindən daxil olmuşdur.

Hesabat dövründə kredit qoyuluşları uzunmüddətli kreditlər hesabına artmışdır. Uzunmüddətli kreditlər 20.6% artaraq kredit portfelinin 76.5%-nə çatmışdır. Ötən rübdə olduğu kimi bu rübdə də qısamüddətli kreditlərin portfeldə xüsusi çəkisi azalmaqda davam etmişdir (hesabat dövrü ərzində 5.1 faiz bəndi azalma).

Qrafik 2.7. Kreditlərə tələb: 2013-cü ilin II rübü (banklar arasında aparılmış sorğunun nəticələri), %-lə



Mənbə: AMB

Qrafik 2.8. Kredit portfelinin valyuta strukturu, %-lə



Mənbə: AMB

Qrafik 2.9. Subyektlər üzrə kredit portfelinin strukturunun dinamikası



Mənbə: AMB

Hesabat dövründə milli valyutada olan kreditlər üzrə 15.8%, xarici valyutada olan kreditlərdə isə 5.3% artım müşahidə olunmuşdur. Kredit portfelinin strukturunda milli valyutada kreditlərin xüsusi çəkisi yarımilliyin sonuna 70.8% (ilin əvvəlinə 68.8%) olmuşdur.

01 iyul 2013-cü il tarixinə banklar tərəfindən hüquqi şəxslərə verilmiş kreditlər 8 575 mln. manat (portfeldə payı 62.3%) təşkil etmişdir. Ev təsərrüfatlarına verilən kreditlər isə cari ilin I yarımilliyi ərzində (banklar üzrə) 10.1% artmış və dövrün sonuna 5 199 mln. manat təşkil etmişdir. Bu da cəmi kredit portfelinin 38%-ni təşkil etmişdir.

1 iyul 2013-cü il tarixinə fiziki şəxslərə daşınmaz əmlakın tikintisi və alınması üçün verilmiş kreditlər 763 mln. manat təşkil etmişdir. Bu kreditlərin ev təsərrüfatlarına verilmiş kreditlərin portfelində xüsusi çəkisi 14.7% olmuşdur. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə verilmiş kreditlər isə hesabat dövrü ərzində 36.8% artaraq ev təsərrüfatlarına verilmiş kreditlərin 7.8%-ni təşkil etmişdir.

I yarımilliyin sonuna fiziki şəxslərə verilən uzunmüddətli kreditlərin cəmi portfeldə payı yüksək (74.6%) olmuşdur.

Kreditlər kənd təsərrüfatı və emal sektoruna

Cədvəl 2.2. Bankların kredit portfelinin sahələr üzrə strukturu və dinamikası

Sahə	01.07.13	
	mln. manat	Kredit portfelində payı, %-lə
Ticarət və xidmət	2 162.5	15.7
Ev təsərrüfatlarına	5 199.0	37.7
Kənd təsərrüfatı və emalı	671.3	4.9
İnşaat və əmlak	2 132.2	15.5
Sənaye və istehsal	1 342.1	9.7
Nəqliyyat və rabitə	442.9	3.2
Energetika və təbii sərvətlər	317.6	2.3
Digər	1 506.3	10.9

Mənbə: AMB

22.9%, inşaat və əmlak sektoruna 67.9%, nəqliyyat və rabitə sektoruna isə 3.2% artmışdır. Dövrün sonuna plastik kartlarla əməliyyatlar üzrə kreditlərin artımı 41.1% olmuş və 275 mln. manat təşkil etmişdir.

Bankların qiymətli kağızlara investisiyaları 1 iyul 2013-cü il tarixinə 1 469.7 mln. manat təşkil etmişdir.

Cədvəl 2.3. Regionlar üzrə (Bakı istisna olmaqla) kreditlər və əmanətlər, mln. manat

Tarix	Kredit qoyuluşu			Əmanətlər		
	Cəmi	Manatla	Xarici valyutada	Cəmi	Manatla	Xarici valyutada
01.01.2012	1 271.7	940.1	331.5	327.6	242.7	85.0
01.07.2012	1 398.7	1 075.5	323.2	381.7	287.8	93.9
01.01.2013	1 546.1	1 144.5	401.6	359.1	270.7	88.4
01.07.2013	1 544.7	1 155.8	388.9	421.7	326.4	95.3

Mənbə: AMB

2013-cü ilin I yarısında kredit təşkilatları tərəfindən regionların kreditləşdirilməsi prosesi davam etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin ilk yarısı ərzində regionlara kredit qoyuluşları 10.4% artmışdır. Regionlara verilən kredit portfelində payın həcminə görə ötən dövrlərdə olduğu kimi Abşeron iqtisadi rayonu (22.3%), Aran iqtisadi rayonu (34.9%), Gəncə-Qazax iqtisadi rayonu (13.2%), Lənkəran iqtisadi rayonu (10.2%) xüsusilə seçilmişlər.

Regionlara milli valyutada verilmiş kreditlər xarici valyutada kredit qoyuluşlarını üstələmiş və 1 iyul 2013-cü il tarixə kredit portfelinin 74.8%-ni təşkil etmişdir. Regionlara kredit portfelinin 77%-ni uzunmüddətli kreditlər təşkil edir.

Qrafik 2.10. Bank aktivlərinin strukturu, %-lə



Mənbə: AMB

2.4. Bank sektorunun fəaliyyətinin maliyyə nəticələri

Hesabat dövrü ərzində bank sisteminin maliyyə nəticələri ümumilikdə qənaətbəxş olmuşdur.

2013-cü ilin I yarımilliyində bankların əldə etdikləri mənfəət 174.1 mln. manat təşkil etmişdir. Vergi ödənildikdən sonra xalis mənfəət isə 162.3 mln. manat olmuşdur.

Mənfəətlə işləyən bankların sayı 40 (01.01.2013-ci il tarixə sayı 33), zərərlə işləyən bankların sayı isə 3 (01.01.2013-ci il tarixə sayı 10) olmuşdur.

2013-cü ilin ilk yarımilində kommersiya banklarının mənfəətinin artımı kredit aktivliyinin canlanması və aktivlərin keyfiyyətinin yaxşılaşması ilə izah olunur. Başqa sözlə, ötən ilin müvafiq dövrü ilə müqayisədə faiz gəlirlərinin artımı və ehtiyatların formalaşmasına yönədilmiş vəsaitlərin azalması mənfəəti artırmışdır.

Qrafik 2.11. Bank sisteminin mənfəəti, mln. manat



Mənbə: AMB

Dövr ərzində bankların müştərilərə verdiyi kreditlər üzrə faiz gəlirləri ötən ilin müvafiq dövrü ilə müqayisədə 29.3% artmışdır (2013-cü ilin I yarımilliyində 707 mln. manat, 2012-ci ilin I yarısında 546.9 mln. manat). Faiz gəlirlərinin orta aktivlərə nisbəti I yarımillikdə 7.7% olmuşdur.

Faiz gəliri gətirən digər əməliyyatlardan (banklararası tələblər, investisiyalar və maliyyə lizinqi) əldə edilən gəlir 26.3% artmış və orta aktivlərə nisbətdə 0.6% təşkil etmişdir.

Dövr ərzində bankların cəmi qeyri-faiz gəlirləri ötən ilin I yarısı ilə müqayisədə 19.4% artmış və 194.7 mln. manat təşkil etmişdir. Qeyri-faiz gəlirləri əsasən valyuta əməliyyatlarından gələn gəlir, hesabların aparılması üzrə xidmətlərdən tutulan komisyon və digər komisyon haqlarının hesabına formalaşmışdır.

Bütövlükdə, bankların ümumi gəlirləri cari ilin yanvar-iyun aylarında (faiz və qeyri-faiz) 960.9 mln. manat təşkil etmiş və ötən ilin I yarısı ilə müqayisədə 27% (204.1 mln. manat) artmışdır.

Dövr ərzində faiz xərcləri 390.6 mln. manat təşkil etmişdir. Bu əsasən müddətli depozitlər üzrə faiz xərclərindən ibarətdir. Faiz xərclərinin orta aktivlərə nisbəti ötən ilin I yarısına nəzərən 0.1 faiz bəndi azalaraq 4.3% olmuşdur.

Qeyri-faiz xərcləri ilin I yarısında 22.7% artmış və 344.3 mln. manat təşkil etmişdir. Qeyri-faiz xərclərinin orta aktivlərə nisbəti 0.1 faiz bəndi azalaraq 38% olmuşdur. Ümumi xərclər isə (faiz və qeyri-faiz) 21.2% (128.4 mln. manat) artaraq 734.9 mln. manat təşkil etmişdir.

Ötən ilin I yarısı ilə müqayisədə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatların yaradılmasına ayırmalarda 60% azalma müşahidə olunmuşdur. Bu, öz növbəsində bankların məcmu xərclərinin azalmasına və vergilər ödənildikdən sonra xalis mənfəətə müsbət təsir göstərmişdir.

Cari ilin yarım ilində bankların gəlirliliyi

Cədvəl 2.4. Mənfəətin strukturu, mln. manat

	2012 il I yarısı	2013 il I yarısı	Dəyişmə, %-lə
Faiz gəliri	593.7	766.1	29.0
Faiz xərcləri	321.5	390.6	21.5
Qeyri-faiz gəliri	163.0	194.7	19.4
Qeyri-faiz xərcləri	285.0	344.3	20.8
Ümumi gəlir	756.7	960.9	27.0
Ümumi xərc	606.4	734.9	21.2
Xalis əməliyyat mənfəəti	150.3	226.0	50.4
Aktivlər üzrə mümkün zərər üçün ehtiyatın yaradılmasına ayırmalar	132.0	51.8	-60.8

Mənbə: AMB

əhəmiyyətli artmışdır. Kapitalın gəlirliliyi (ROE) 14.8%-ə çatmışdır. ROE-nin artması aktivlərin keyfiyyətinin stabilləşməsi və kreditlər üzrə ehtiyatlara ayırmaların həcminin əhəmiyyətli azalması ilə əlaqədardır. Bank aktivlərinin gəlirliliyi (ROA) yarımillik ərzində 1.8% təşkil etmişdir.

Qrafik 2.12. Bank sisteminin gəlirliliyi, %-lə



Mənbə: AMB

Kapital multiplikatorunun[3] artım dinamikası bankların aktivlərini əsasən borclanmaqla artırdıqlarını göstərir. Belə ki, I yarımillikdə bu nisbət 8.5 səviyyəsində olmuşdur.

Xalis faiz marjası[4] cari ilin I yarısında 5.44% olmuşdur. Buna səbəb xalis faiz gəlirlərindəki artımın gəlir gətirən aktivlərin artımından yüksək olmasıdır. Bu, gəlir gətirən aktivlərin keyfiyyətinin yaxşılaşmasını, bankların ucuz resurslara çıxış imkanlarının genişlənməsini göstərir.

2.5. Bank sektorunun kapitalı

Hesabat dövründə bank sisteminin kapitallaşması prosesində müsbət meyillər davam etmiş, sistemin kapital adekvatlığı göstəriciləri məqbul səviyyədə olmuşdur.

2013-cü ilin I yarısında bank sisteminin məcmu kapitalının həcmi 11.7% və ya 301.2 mln. manat artaraq 2 883.5 mln. manata çatmışdır. Məcmu kapitalın artımının əsas mənbəyi əvvəlki dövrlərdə olduğu kimi (79.5%-ni) nizamnamə kapitalı olmuşdur. Belə ki, nizamnamə kapitalı 171.4 mln. manat və ya 8.1% artmışdır. Ümumi ehtiyatlar isə 10.7% (20.4 mln. manat) yüksəlmişdir. Törəmə müəssisələrin və digər kredit təşkilatlarının səhmlərinə (paylarına), qeyri-maddi aktivlərə investisiyalar 9.1% artaraq 330.2 mln. manat səviyyəsinə yüksəlmişdir (cari ilin əvvəlinə 302.6 mln. manat təşkil etmişdir).

Qrafik 2.13. Bank kapitalının strukturu, mln. manat



Mənbə: AMB

Bank sektoru üzrə kapital adekvatlığı tələb olunan minimal limiti (12%) üstələyərək yarım il ərzində sabit qalaraq 17% təşkil etmişdir.

Cari ilin I yarısının sonuna I dərəcəli kapital adekvatlığı göstəricisi 0.4 faiz bəndi yüksələrək 13.4% təşkil etmişdir ki, bu da minimal normanı (I dərəcəli kapital adekvatlığı norması 6%) 2 dəfədən çox üstələmişdir.

2.6. Banklarda faiz dərəcələri

2013-cü ilin birinci yarısında manatla və xarici valyuta ilə kreditlər və depozitlər üzrə orta çəkili nominal faiz dərəcələrində azalma davam etmişdir.

Kreditlər üzrə manatla orta faiz dərəcələri ötən ilin müvafiq dövrü ilə müqayisədə 1.6 faiz bəndi azalaraq hesabat dövrünün sonuna 14.1%

[3] Kapital multiplikatoru – aktivlər/kapital, və ya ROE/ROA. Hər bir manat kapitala düşən aktivlərin payını göstərir
[4] Xalis faiz marjası - (Xalis faiz mənfəəti)/(Orta gəlir gətirən aktivlər)

təşkil etmişdir. Eyni dövrdə əmanətlər üzrə manatla nominal orta faiz dərəcələri 10.3%-dən 9.6%-ə enmişdir. Xarici valyutada kreditlər və əmanətlər üzrə faiz dərəcələri 0.7% bəndi azalmışdır. Dövrün sonuna manatda faiz spredi ortalama 4.5%, valyutada isə 4.6% olmuşdur.

Yeni verilmiş kreditlər və cəlb edilmiş əmanətlər, habelə banklararası kreditlər üzrə orta çəkili faiz dərəcələrində dövr ərzində azalma müşahidə olunmuşdur (Qrafik 2.14.).

2013-cü ilin I yarısının sonuna manatla banklararası kreditlər üzrə faiz dərəcəsi ilin əvvəli ilə müqayisədə 1% bəndi azalaraq 8.11% olmuş, xarici valyutada isə bu göstərici 0.9% bəndi azalma ilə 4.7% təşkil etmişdir.

Qrafik 2.14. Manatla yeni cəlb edilmiş depozit və verilmiş kreditlər üzrə faiz dərəcəsi



Mənbə: AMB

III. BANK SİSTEMİNDƏ RİSKLƏR

2013-cü ilin I yarısında bank sistemində risklər idarə olunan səviyyədə saxlanılmışdır. Likvidliyin məqbul səviyyədə qalmasında bankların depozit bazasının müddət və valyuta strukturunun yaxşılaşması mühüm rol oynamışdır.

Kredit aktivliyinin bərpası ilə əlaqədar ilin əvvəli ilə (14.9%) müqayisədə likvid aktivlərin ümumi aktivlərdəki payı bir qədər azalsa da minimal səviyyədən (10%) yüksək olmuşdur (11.5%). Likvid aktivlərin cari öhdəliklərdə xüsusi çəkisi yarımilliyin sonuna 56.6% təşkil etmişdir. Ani likvidlik əmsalı[5] 59.5% (1 yanvar 2013-cü l tarixə 67%) olmuşdur ki, bu da Mərkəzi Bankın tələbinə (minimal limit 30%) cavab verir. Yüksək likvidlik ölkədə maliyyə dərinliyinin artmasına dəstək verən amillərdən biri olmuşdur.

Qrafik 3.1. Likvidlik göstəriciləri, %-lə



Mənbə: AMB

Yüksək likvid aktivlərin orta günlük qalığı ilin əvvəli ilə müqayisədə 32.6 mln. manat (-1.5%) azalaraq dövrün sonuna 2 112.1 mln. manat təşkil etmişdir.

1 iyul 2013-cü il tarixə likvid aktivlərin strukturunda nağd vəsaitlər, nostro hesablar

Qrafik 3.2. Likvid aktivlərin dinamikası və strukturu, mln. manat



Mənbə: AMB

və dövlət qiymətli kağızların xüsusi çəkisi müvafiq olaraq 37%, 20% və 15.5% olmuşdur. Bankların Mərkəzi Bankda hesablarının likvid aktivlərdə xüsusi çəkisi dövrün sonuna 27.6% təşkil etmişdir.

Hesabat dövründə bankların müddət üzrə aktiv və passivləri arasında fərq məqbul səviyyədə qalmış və bank sistemində likvidlik riskinin azalmasına təsir etmişdir. Belə ki, banklar likvidlik riskini tarazlaşdırmaq məqsədilə 90 günədək olan aktiv və passivlər arasında fərqi azaltmışlar. Eyni zamanda kredit aktivliyinin

Qrafik 3.3. Aktiv və passivlər arasında fərqin aktivlərə nisbəti, %-lə



Mənbə: AMB

[5] Ani likvidlik əmsalı - Yüksək likvidli (cari) aktivlərin orta gündəlik qiymətinin yüksək likvidli (cari) öhdəliklərin orta gündəlik məbləğinə olan nisbəti.

Haşiyə 4. Sistem riski: anlayış və xüsusiyyətlər

Qlobal böhran göstərdi ki, riskləri dərk etmək, onları müəyyən və idarə etmək bacarığı maliyyə sisteminin uğurlu və dayanıqlı fəaliyyətinin, inkişafının təməlidir.

Sistem riskinin tərifi. Ədəbiyyatda sistem riskinin vahid qəbul olunmuş tərifi yoxdur. Bu, məsələnin mürəkkəbliyi ilə yanaşı onun kifayət qədər tədqiq olunmaması ilə də əlaqədardır. Məsələn, bəzi tədqiqatçılara əsasən sistem riski "..yaranan risklərə qarşı iqtisadi agentlərin fərdi reaksiyası, onların daha yaxşı bölüşdürülməsi və ya diversifikasiyasına deyil, əksinə ümumi qeyri-müəyyənlik və ümumi dayanıqsızlığın yaranmasına səbəb ola biləcək halların yaranmasının potensial təhlükəsidir".

Sistem risklərin *yaranması və akkumulyasiyası* makroiqtisadi stress və bazar iştirakçılarının davranışı ilə əlaqədardır və burada aşağıdakıları qeyd etmək olar:

i) maliyyə vasitəçilərin identik (kollektiv) davranışı;

ii) maliyyə vasitəçilərin protsiklik davranışı;

iii) maliyyə institutları arasında qarşılıqlı əlaqə və asılılıq.

İstənilən iqtisadi fəaliyyət bu və ya digər risk növü, yəni itkilərin yaranması ehtimalı ilə üzləşir. Buna görə də əksər iqtisadi subyektlər riskləri neytrallaşdırmaq və ya minimallaşdırmaq məqsədilə müxtəlif alət və metodlardan istifadə edirlər: iqtisadi fəaliyyətin müxtəlif sahələrində ixtisaslaşmaq, qiymətli kağızlar portfelinin diversifikasiyası, hecinq və s.

Mikroiqtisadi risklərin (yəni ayrı-ayrı bazar agentinin – investor, emitent, bank və s.) minimuma endirilməsi (neytrallaşdırılması) nöqteyi nəzərindən qeyd olunan alət və metodlar çox səmərəli ola bilər. Lakin, sistemin fəaliyyəti ilə əlaqədar kollektiv risklərin azaldılması baxımından bu tədbirlər çox məhdud (bəzən hətta mənfi) təsirə malikdir. İqtisadi subyektlərin fərdi rasional davranışı bazarda əlavə volatillik yaratmaqla sistem riski inkişaf etdirir. Belə ki, bazarda aktivlərin qiymətlərinin düşməsi nəticəsində bazar iştirakçıları baş verə biləcək itkiləri minimallaşdırmaq məqsədilə kollektiv şəkildə həmin aktivləri reallaşdırmağa çalışırlar. Bu isə öz növbəsində həmin aktivlərə olan qiymətin bir az da aşağı düşməsinə və sistem riskinin artmasına səbəb olur.

Sistem riskinin akkumulyasiyası bazar iştirakçılarının qeyri-rasional (məhdud rasional) davranışı nəticəsində yarana bilər. Məsələn, bazar iştirakçıları aktivin dəyərinin artıq qiymətləndirilməsi (overvalued) barədə məlumata malik olsalar belə, onun alınmasından imtina etmirlər. Belə olan halda bazar iştirakçıları qiymətlərin korreksiyasından əvvəl aktivi daha yüksək qiymətlə satacaqlarını nəzərdə tuturlar. Oxşar vəziyyət böhrandan öncə 1997-ci ildə Cənub-Şərqi Asiya ölkələrində müşahidə edilmişdi. Bu ölkələrin makroiqtisadi göstəriciləri bazarların hərarətlənməsini əks etsə də, xarici investorlar öz gözləntilərini yenidən qiymətləndirmədilər.

Sistem risklərinin yayılması. İqtisadiyyatda böhranların baş vermə səbəbi təkcə mikroiqtisadi risklər və bazar iştirakçılarının davranışı deyil, eyni zamanda müxtəlif seqmentlər və maliyyə institutları arasında olan qarşılıqlı əlaqə və asılılıqdakı problemlərdir. Bazarlar və institutlar arasında əlaqələrin növü hər bir bazarın struktur xüsusiyyətləri ilə müəyyən olunur.

Maliyyə vasitəçiliyinə (bank yönümlü) əsaslanan iqtisadiyyatda sistem risklərinin yayılması banklararası əlaqələr vasitəsilə baş verir. Bu zaman banklararası kreditləşmə sistem daxilində risklərin ötürülməsi kanalına çevrilir. Maliyyə "yoluxması" həm milli, həm də kapital axınlarının ölkələr arasında hərəkəti vasitəsilə beynəlxalq səviyyədə də baş verə bilər.

Digər tərəfdən, ayrı-ayrı maliyyə institutlarının müflisləşməsi də sistem riskinin yayılmasına səbəb ola bilər. Belə ki, iri bankın müflisləşməsi əhali arasında təşviş yaradaraq onların əmanətlərinin geri götürülməsi ilə bütün bank sistemini təhlükə altına qoya bilər. Sistem risklərinin yayılmasının ikinci kanalı müflis olmuş bankın kontragent–banklar qarşısında öhdəliklərinin yerinə yetirilməməsidir. Nəticədə bu "domino effekti" yaradaraq əvvəllər likvidlik problemi yaşamayan bankların vəziyyətini pisləşdirir.

Sistem riskinin xüsusiyyətlərindən biri maliyyə sektorunun müstəqil və effektiv olaraq böhranın baş vermə səbəblərini aradan qaldıra bilməməsidir. Bu halda dövlətin müdaxiləsi, bankların fəaliyyətinə mikroprudensial nəzarət, sistem üzrə bütövlükdə risklərin idarə edilməsini təmin edən makroprudensial nəzarət kimi iki yanaşma tətbiq edilir.

Ümumiyyətlə, sistem riskini əmələ gətirən amillərin çoxluğu və müxtəlifliyi onun modelləşdirilməsi prosesini çətinləşdirir. Lakin, bir sıra ölkələr və beynəlxalq maliyyə təşkilatları tərəfindən son iyirmi il ərzində böhranların səbəbləri və yaranması ehtimalının proqnozlaşdırılması sahəsində geniş tədqiqat işləri aparılır. Böhranın qabaqlayıcı indikatorlarının formalaşdırılması metodologiyası üzərində işlər akivləşdirilmiş, makroiqtisadi stress-testləşdirmə və digər üsullar inkişaf etdirilmişdir. Erkən xəbərdarlıq sisteminin mühüm komponenti olan və orta müddətli dövr üçün stress ssenarilərinin nəticələrini qiymətləndirmək imkanı verən makroiqtisadi modelin qurulması istiqamətində tədbirlər davam etdirilir.

Mənbə:

Guidance to assess the systemic importance of financial institutions, markets and instruments: initial considerations. IMF, BIS, FSB, November 2009

Acharya V, L Pedersen, T Philippon, and M Richardson. 2009. "Measuring Systemic Risk", mimeo, New York University

artması ilə əlaqədar 365 gündən artıq olan fərq artsa da, məqbul səviyyədə qalmışdır.

Məzənnə riskinin minimallaşdırılması məqsədi ilə aktiv və öhdəliklərin valyuta strukturu balanslaşdırılmışdır. Belə ki, 2013-cü ilin 1 iyul tarixinə xarici valyutada olan aktivlər ümumi aktivlərin 33.7%-ni (1 yanvar 2013-cü il tarixə 34.1%), öhdəliklər isə ümumi öhdəliklərin 45.4% -ni (1 yanvar 2013-cü il tarixə 44.3%) təşkil etmişdir.

Cari ilin I yarımilliyində kredit portfelinin keyfiyyəti məqbul, kredit riskləri isə idarə oluna bilən səviyyədə olmuşdur. Belə ki, ilin əvvəli ilə müqayisədə vaxtı keçmiş kreditlərin cəmi kreditlərdə xüsusi çəkisi 6.2%-dən 5.8%-ə enmişdir.

Likvidliyin məqbul səviyyədə saxlanılması və banklarda kapitallaşma prosesinin davam etməsi baş verə biləcək şoklara qarşı sistemin dayanıqlığını yüksəldir.

IV. ÖDƏNİŞ SİSTEMLƏRİ

Hesabat dövründə ödəniş sistemlərinin sabit və fasiləsiz fəaliyyəti təmin edilmişdir. Milli Ödəniş Sistemində aparılan əməliyyatların həcmi və sayı artmışdır.

2013-cü ilin I yarısı ərzində Milli Ödəniş Sistemində ümumi həcmi 62.6 mlrd. manat olmaqla, 14.7 mln. ədəd əməliyyat aparılmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əməliyyatların sayı 9.5% (1.7 mln. ədəd), ümumi həcmi isə 11.4% (6.4 mlrd. manat) artmışdır.

Hesabat dövründə ödənişlərin orta günlük sayı 111 min ədəd, orta günlük həcmi isə 474.3 mln. manat təşkil etmişdir (2012-ci ilin yanvar-iyun müvafiq olaraq 101.4 min ədəd və 425.5 mln. manat).

Nağdsız ödənişlərin 87.5%-i AZİPS sistemi vasitəsilə həyata keçirilmiş və onun ümumi həcmi 54.8 mlrd. manat olmuşdur (233 min ədəd əməliyyat). 2012-ci ilin müvafiq dövrü ilə müqayisədə əməliyyatların ümumi həcmi 8.6% (4 320 mln. manat) artmışdır. Hər bir ödəniş sənədinin məbləği orta hesabla 240.8 min manat təşkil etmişdir.

Qrafik 4.1. Milli Ödəniş Sistemində ödəniş əməliyyatlarının dinamikası



Mənbə: AMB

Məbləğ baxımından ödənişlərin 10.9%-i (6 831 mln. manat) XÖHKS sistemi vasitəsilə həyata keçirilmişdir. Say baxımından isə XÖHKS sisteminin payı 87.5% təşkil etmiş və hesabat dövrünün yekunu üzrə 12.8 mln. ədəd ödəniş olmuşdur. Bu da ötən ilin müvafiq dövründə aparılmış ödənişlərin həcmini 39.3% (1 927 mln. manat), sayını isə 7% (825 min ədəd) üstələmişdir. Hər bir ödənişin məbləği orta hesabla 535.6 manat təşkil etmişdir.

Kommersiya bankları ödəniş kartlarının prosessinqinə dair infrastrukturun inkişafını davam etdirmişlər. 2013-cü ilin yanvar-iyun aylarında bank ödəniş kartlarına ölkə ərazisində quraşdırılmış 2 351 bankomatda və 35 758 ədədi pərakəndə ticarət, iaşə və digər xidmət müəssisələrində olmaqla ümumilikdə 37 166 POS-terminalda xidmət edilmişdir.

Qrafik 4.2. Ölkə daxilində bankomatlar və POS-terminallarla aparılan əməliyyatlarda debet və kredit kartlarının payı (01 iyun 2013-cy il tarixinə), %-lə



Mənbə: AMB

Qeyd edək ki, dövr ərzində ölkə ərazisində bankomatların sayı 4% artmışdır.

2013-cü ilin ilk altı ayında bankomatlar vasitəsilə 3 949 mln. manat həcmində 24.631 mln. ədəd əməliyyat aparılmışdır. POS-

Haşiyə 5. Elektron ödənişlərin iqtisadi artıma təsiri

Məlumat və hesablamalar kartlardan faktiki istifadə səviyyəsinin artım tempinin və kart penetrasiya[6] səviyyəsinin gələcək artım potensialının yüksək olduğunu göstərir. Belə ki, dünyada 2012-ci ildə pərakəndə ticarət üzrə ödənişlərin 32%-i kartlarla aparılmışdır. 2008-ci ildən kartlarla ödənişin orta illik artım tempi 7.7% olmuşdur ki, bu da nağd ödənişlərin artım tempindən 2.6 dəfə yüksəkdir. Moody's Analytics təşkilatının hesablamaları dünya ÜDM-nin 93%-ni təşkil edən 56 ölkə arasında 2008-2012-ci illər üzrə aparılmışdır. Metodologiyaya uyğun olaraq istehlak real sərəncamda qalan gəlir, real faiz dərəcələri və kart penetrasiya səviyyəsinin funksiyası kimi modelləşdirilmişdir. Metodologiya bu iqtisadi məntiqə söykənir: kart penetrasiya səviyyəsinin artması→bankların resurs bazasının genişlənməsi→real faiz dərəcələrinin enməsi→istehlakın genişlənməsi.

Elektron ödəniş məhsullarından geniş istifadə real ifadədə dünya ÜDM-in 2008-2012-ci illər ərzində 983 mlrd. $ artmasına səbəb olmuşdur (2003-2008-ci illərdə 1.1 trln. $). Kartlardan istifadənin genişlənməsi 56 ölkədə orta illik iqtisadi artıma 0.17% bəndi artırıcı töhfə vermişdir. Bu isə həmin dövrdə dünya üzrə orta iqtisadi artımın (1.8%) təqribən 10%-ə bərabərdir (2003-2008-ci illərdə 15%). Başqa ifadə ilə kartlardan istifadə genişlənməsəydi dünya iqtisadi artımı 1.8% yox, təqribən 1.6% təşkil edərdi. ÜDM-in əlavə artımı təqribən 1.9 mln. yeni iş yerlərinin (2003-2008-ci illərdə 4.9 mln.) yaradılmasına bərabərdir.

Elektron ödənişlərdən geniş istifadə İEÖ-də ÜDM-in 0.3%, İEOÖ-də isə 0.8% artımına səbəb olmuşdur[7]. İEOÖ-də artıma töhfənin yüksək olması kartların penetrasiya səviyyəsinin daha çox artması ilə əlaqədardır. Məsələn, Çində 2008-ci ildə kartlardan istifadə səviyyəsi 31%-dən 2012-ci ildə 56%-ə yüksəlmiş və bu nəticədə ÜDM-in əlavə 1.7% (ümumi iqtisadi artımın 15%-i) artmasına səbəb olmuşdur. Bu göstərici Qazaxıstanda 0.18 (ümumi orta iqtisadi artımın 2%-i), Rusiyada 0.55 (8%-i), Türkiyədə 0.49 (8%-i), Çexiyada 0.18 (3%-i), Norveçdə 0.18 (9%-i), ABŞ-da 0.22%-ə (10%-i) bərabərdir.

Kartlardan istifadənin artması istehlakın ortalama 0.7% artımını şərtləndirmişdir. Bu nisbət İEOÖ-də 1.6%, İEÖ-də isə 0.4% təşkil etmiş, o cümlədən Qazaxıstanda 0.25, Rusiyada 1.07, Türkiyədə 0.70, Çexiyada 0.36, Norveçdə 0.43, ABŞ-da 0.31%-ə bərabər olmuşdur. Orta müddətli dövrdə də kartlardan istifadə səviyyəsinin artması və bunun istehlak, iqtisadi artıma pozitiv təsir etməsi gözlənilir. Belə ki, hesablamalar kartların penetrasiya səviyyəsinin artımı hesabına dünyada istehlakın 0.25%, iqtisadi artımın isə 0.16% artacağını göstərir.

Kartlardan istifadə səviyyəsinin artımı ilə istehlak, iqtisadi artım arasında elastiklik əlaqəsi güclüdür. Belə ki, kartlardan istifadə səviyyəsinin 1% artması istehlakın 0.056%, iqtisadi artımın isə 0.035% artımına səbəb olur. Bu metrikslər İEÖ üçün müvafiq olaraq 0.042% və 0.025%, İEOÖ üçün isə 0.056% və 0.028% təşkil edir. Ən yüksək elastiklik əlaqəsi istehlakda Çin (0.129) və Norveçə (0.112), istehsalda isə Kanada (0.061) və Britaniyaya (0.055) aiddir. Ən aşağı elastiklik əlaqəsi istehlakda Ruanda (0.003) və Hindistanda (0.007), istehsalda isə Qətər (0.006) və Ukraynada (0.007) qeydə alınmışdır.

Mənbə:
Moody's Analytics, "The Impact of Electronic Payments on Economic Growth", fevral 2013

Qrafik 4.3. Quraşdırılmış bankomatların və POS-terminalların sayı



Mənbə: AMB

terminallar vasitəsilə aparılan əməliyyatların ümumi sayı 4 292 min ədəd, həcmi isə 431 mln. manat təşkil etmişdir.

Ödəniş kartlarının sayı dövr ərzində 293 min ədəd artaraq 5.301 mln. ədədə çatmışdır ki, bu da hər min nəfərə (yetkinlik yaşına çatmış) orta hesabla 862.5 ədəd ödəniş kartı deməkdir. 2013-cü ilin 1 iyul tarixinə ölkə üzrə ümumi kart istifadəçilərinin sayı 4.5 mln. nəfər təşkil etmişdir.

[6] Kartlarla aparılan tranzaksiyaların həcmi/ümumi istehlak xərcləri
[7] Fərqlərin olması ölkələr üzrə kart penetrasiya səviyyəsi, istehlakçıların kart infrastrukturuna reaksiyası və s. ilə əlaqədardır

Ödəniş kartlarının 88%-ini debet kartları (bundan 55%-i sosial, 29%-i əmək haqqı və 16%-i digər kartlar), qalan 12%-ini isə kredit kartları təşkil etmişdir.

Yarımillik ərzində ödəniş kartları vasitəsilə ölkə daxilində həyata keçirilən tranzaksiyaların ümumi həcminin 94.2%-i (4 126 mln. manat) nağd pul vəsaitinin çıxarılması, 4.8%-i (254 mln. manat) isə nağdsız əməliyyatlar təşkil etmişdir.

İnternet vasitəsilə bank xidmətlərindən istifadə də genişlənməkdədir. Belə ki, yanvar-iyun ayları ərzində internet-banking vasitəsilə 171.4 mln. manat məbləğində 28.3 min ədəd əməliyyat həyata keçirilmişdir. Mobil-banking vasitəsilə isə 283.3 min manat məbləğində 19 min ədəd əməliyyat həyata keçirilmişdir.

İstifadə olunmuş qrafik və cədvəllər

Qrafiklər

Qrafik 1.1. MSCI fond indeksləri 6
Qrafik 1.2. İnkişaf etməkdə olan ölkələrə kapital axını 8
Qrafik 1.3. Yanvar-iyun aylarında iqtisadi artım 9
Qrafik 1.4. Orta illik inflyasiya 9
Qrafik 2.1. Herfindal – Hirşman indeksi (kreditin həcminə görə) 11
Qrafik 2.2. Bank şəbəkəsinin dinamikası 13
Qrafik 2.3. Bankların resurs bazasının strukturu 13
Qrafik 2.4. Qeyri-maliyyə sektorunun depozitlərinin dinamikası 13
Qrafik 2.5. Əmanətlərin müddət strukturu 14
Qrafik 2.6. Xarici borcun dinamikası 14
Qrafik 2.7. Kreditlərə tələb: 2013-cü ilin II rübü (banklar arasında aparılmış sorğunun nəticələri) 15
Qrafik 2.8. Kredit portfelinin valyuta strukturu 16
Qrafik 2.9. Subyektlər üzrə kredit portfelinin strukturunun dinamikası 16
Qrafik 2.10. Bank aktivlərinin strukturu 17
Qrafik 2.11. Bank sisteminin mənfəəti 18
Qrafik 2.12. Bank sisteminin gəlirliliyi 19
Qrafik 2.13. Bank kapitalının strukturu 19
Qrafik 2.14. Manatla yeni cəlb edilmiş depozit və verilmiş kreditlər üzrə faiz dərəcəsi 20
Qrafik 3.1. Likvidlik göstəriciləri 21
Qrafik 3.2. Likvid aktivlərin dinamikası və strukturu 21
Qrafik 3.3. Aktiv və passivlər arasında fərqin aktivlərə nisbəti, %-lə 21
Qrafik 4.1. Milli Ödəniş Sistemində ödəniş əməliyyatlarının dinamikası 24
Qrafik 4.2. Ölkə daxilində bankomatlar və POS-terminallarla aparılan əməliyyatlarda debet və kredit kartlarının payı: 01 iyun 2013-cü il tarixinə 24
Qrafik 4.3. Quraşdırılmış bankomatların və POS-terminalların sayı 25

Cədvəllər

Cədvəl 1.1. ÜDM-in artım tempi 5

Cədvəl 2.1. Bank sisteminin əsas göstəricilərinin artım tempi 11

Cədvəl 2.2. Bankların kredit portfelinin sahələr üzrə strukturu və dinamikası 16

Cədvəl 2.3. Regionlar üzrə (Bakı istisna olmaqla) kreditlər və əmanətlər 17

Cədvəl 2.4. Mənfəətin strukturu 18

Azərbaycan Respublıkasının Mərkəzi Bankı
Azərbaycan, Bakı, AZ1014, R. Behbudov küç., 32
Telefon (994 12) 493 11 22
Faks (994 12) 493 55 41
www.cbar.az